“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin
“___” ___________ 2024-cü il tarixli
______________________nömrəli əmri ilə
təsdiq edilmiş
1 nömrəli əlavə

**AZS 498:2022 “ Uyğunluğun qiymətləndirilməsi. Malların sertifikatlaşdırılması qaydası ” DÖVLƏT STANDARTINA**

**1 SAYLI DƏYİŞİKLİK**

Tətbiq edilmə tarixi: “___” ____________2024-cü il

AZS 498:2022 “Uyğunluğun qiymətləndirilməsi. Malların sertifikatlaşdırılması qaydası”dövlət standartına edilmiş dəyişikliklər:

1. Standarta aşağıdakı redaksiyada yeni 4.19-cu bəndi əlavə edilsin:

“Uyğunluğun qiymətləndirilməsi qurumu tərəfindən malların uyğunluğunun könüllü qiymətləndirilməsi barədə uyğunluq sertifikatlarının verilməsi (o cümlədən qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi) “e-keyfiyyət.gov.az” portalı vasitəsilə həyata keçirilir”

2. Standarta aşağıdakı redaksiyada yeni 4.20-ci bəndi əlavə edilsin:

Malın müvafiq standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğunluğunun təsdiq edilməsi prosesindən əvvəl milli standartlaşdırma qurumundan standartlaşdırma üzrə normativ sənədlərin rəsmi nəşrlərinin əldə olunması və onların tələblərinə riayət olunması məcburi hesab olunur.

3. Standarta aşağıdakı redaksiyada yeni 4.21 -ci bənd əlavə edilsin:

Uyğunluğun qiymətləndirilməsi zamanı fiziki və hüquqi şəxslər rəsmi nəşrlərin (texniki şərtlər istisna olmaqla) onlara məxsusluğunu (standartlaşdırma üzrə sənədlərin milli standartlaşdırma qurumundan alınmasını) təsdiq etməlidirlər.